# Özbək operasının azərbaycanlı baş rejissoru

## *Türküstan müxbirimizin görkəmli sənətkarlar barədə kitabı*

**Daşkənddəki "Renessans press" nəşriyyatı "Xalq qəzeti"nin Türküstan üzrə müxbiri Qulu Kəngərlinin Əlişir Nəvai adına Özbəkistan Dövlət Opera və Balet Teatrının baş rejissoru, Azərbaycanın və Özbəkistanın Xalq artisti, Dövlət mükafatı laureatı mərhum Firudin Səfərov haqqında Azərbaycan, özbək, türk və rus dillərində "İki xalqın oğlu Firudin Səfərov" kitabını nəfis tərtibatla çap edib.**




Kitabda Firudin Səfərovun həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilir. Qeyd olunur ki, F.Səfərov 1968-ci ildə N. A. Rimski-Korsakov adına Leninqrad Dövlət Konservatoriyasının musiqili teatr rejissorluğu fakültəsini bitirib.

Həmin il Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında quruluşçu rejissor kimi fəaliyyətə başlayan istedadlı rejissor qısa müddətdə yüksək yaradıcılıq imkanlarına, dərin səhnə duyumuna malik olduğunu göstərə bilib. F.Səfərov Bakı teatrında populyar milli və klassik opera tamaşalarına quruluş verib, teatr aləmində bacarıqlı rejissor kimi nüfuz qazanıb. Azərbaycanda çalışdığı müddətdə 40-a yaxın dövlət səviyyəli tədbirin hazırlanması Firudin Səfərova həvalə olunub.

Sovet dönəmində maraqlı işləri ilə bütün İttifaqda tanınan rejissor 1977-ci ildə Əlişir Nəvai adına Özbəkistan Dövlət Opera və Balet Teatrına dəvət alıb. Daşkənddə yaşadığı 47 il ərzində müasir və klassik operalara maraqlı səhnə həyatı verib. Firudin Səfərov Özbəkistanda keçirilən kütləvi bayramların da bədii rəhbəri və quruluşçu rejissoru olub. Qardaş ölkədə çalışdığı vaxtlarda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında dahi Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Koroğlu", türk bəstəkarı Nevit Kodallının "Van Qoq" və görkəmli Azərbaycan bəstəkarı Vasif Adıgözəlovun "Natəvan" operalarına quruluş verib. F.Səfərov Bakı və Daşkənd teatrlarından əlavə, Türkiyə, Rusiya, Belarus, Qazaxıstan və digər ölkələrdə də tamaşalar hazırlayıb. Rejissor, ümumiyyətlə, bu teatrlarda 70-dən çox klassik və müasir operaya səhnə həyatı verib. Firudin Səfərov Daşkənd Dövlət Konservatoriyasının professoru kimi gənc opera rejissorlarının hazırlanmasında da müstəsna xidmət göstərib.

Rejissorun 70, 80, 85 və 90 illik yubileyləri Daşkənddə yüksək səviyyədə qeyd olunub, ictimai və musiqi fəaliyyətindəki xidmətlərinə görə Firudin Səfərov Özbəkistanın "Əmək şöhrəti", "Görkəmli xidmətlərə görə", "Fədakar xidmətləri üçün" ordenləri ilə və medallarla təltif olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə diaspor quruculuğu sahəsindəki xidmətlərinə görə "Tərəqqi" medalına layiq görülüb. Firudin Səfərov ötən il iyulun 26-da 91 yaşında Daşkənddə vəfat edib. Qulu Kəngərli onun zəngin həyat və yaradıcılığını ustalıqla qələmə alıb.

*XQ*



F. Səfərovun 85 illiyi





Bəstəkar Rustəm Abdullayevlə



Firəngiz xanımla

Xalq qəzeti .- 2025.- 21 may (№ 104).- S.14.